

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 253 (21.405)

24 dekabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 23-də Milli Olimpiya Komitəsində 2015-ci ilə yekun vurulub, idmançılara və idman mütəxəssislərinə mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Mərasim iştirakçıları Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Dövlətimizin başçısı tədbirdə nitq söylədi.

Sonra 2015-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.

Prezident İlham Əliyev 2015-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançı və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya və Prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi, dövlətimizin başçısına fəaliyyətində uğurlar arzuladı.




## Ulu öndər Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi

*Naxçıvan Dövlət Universitetində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş “Ulu öndər Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi” mövzusunda konfrans keçirilib.*

Konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq bu əlamətdar günün tarixi əhəmiyyətindən, Azərbaycan xalqının milli həmrəyliyinin formalaşmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb. Qeyd olunub ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan parlamenti tərəfindən 1991-ci il dekabrın 16-da 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilib. Dövlətimizin xaricdə yaşayan azərbaycanlıların sosial-iqtisadi maraqlarının müdafiəsi, beynəlxalq konvensiyalarda təsbit olunmuş hüquqlarının qorunması üçün gördüyü tədbirlərdən danışan rektor bildirib ki, ümummilli liderin dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Azərbaycançılıq ideyası ətrafında birləşdirilməsi və güclü diasporamızın yaradılması siyasətini ölkə başçısı İlham Əliyev uğurla davam etdirir.

Universitetin İqtisad fakültəsinin dekan müavini, dosent Teymur Abbasov çıxış edərək vurğulayıb ki, Azərbaycan Respublikası harada yaşamasından asılı olmayaraq, bütün soydaşlarımızın doğma yurdudur. Dünyanın bir çox ölkəsində məskunlaşmış azərbaycanlılar Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi heyrətamiz uğurlarla fəxr edirlər. Bu gün Azərbaycanımız dünyanın iqtisadi cəhətdən ən dinamik inkişaf edən ölkələri sırasındadır.

Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev “Ulu öndər Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi” mövzusundakı məruzəsində dahi liderin səyi nəticəsində Azərbaycançılıq, dövlətçilik ideyalarının təbliği, vətənpərvərlik ruhunun yüksəldilməsi, qloballaşan dünyada soydaşlarımızın həmrəyliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Konfransda İqtisad fakültəsinin akademik məsləhətçisi Ruhəngiz Əliyevanın “Gənclik və həmrəylik”, tələbələrdən Nəsrin Əliyevanın “Ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyası”, Ülvi Quluzadənin “Dünya azərbaycanlılarının həmrəyliyi tələbələrin gözü ilə” mövzularında məruzələri dinlənilib. Məruzəçilər milli-mənəvi özünəqayıdışın, birliyin, Azərbaycançılığın rəmzi olan həmrəylik bayramının 24 illiyi münasibətilə konfrans iştirakçılarını təbrik ediblər.

Sonda tələbələrin 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə hazırladıqları qısametrajlı film nümayiş olunub.

**Mina QASIMOVA**

*Muxtar respublikamızın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq və təmir-bərpa işləri regionumuzu müasirliyə qovuşdurub. Dünən buraya yolu düşənlər bu gün Naxçıvanda gördüklərindən təəccüblərini gizlədə bilmirlər. Qısa zaman kəsiyində on illərə bərabər inkişaf yolu keçən, tərəqqiyə qovuşan Naxçıvan bu gün, sözün həqiqi mənasında, tanınmaz dərəcədə dəyişib.*

## “Nümunəvi kənd, nümunəvi məhəllə” devizi altında keçirilmiş aylığın qalibləri mükafatlandırılıb



Bu dəyişikliyi paytaxt şəhərimizdən tutmuş rayon mərkəzlərinə, ən ucqar dağ və sərhəd kəndlərinə qədər görmək olar. Bu prosesdə yaşayış məntəqələrinin təmiz saxlanılması üçün həyata keçirilən tədbirlərin əhəmiyyətini də qeyd etmək lazımdır. Belə xeyirxah tədbirlərdə fəallıq göstərməyi naxçıvanlılar özlərinin vətəndaşlıq borcuna çeviriblər. Çünki yaşadığımız ünvan bizim doğma evimizdir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində “Nümunəvi kənd, nümunəvi məhəllə” devizi altında keçirilmiş aylığın qaliblərinin mükafatlandırma tədbirində bu barədə geniş danışılıb. Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikamız bu gün öz inkişaf tempi ilə ölkəmizin ən öndə gedən regionlarından biridir. Buraya gələn qonaqlar da etiraf edirlər ki, Naxçıvan Muxtar Respublikası öz gözəlliyi və təmizliyi, sabit həyat şəraiti, asayişin yüksək səviyyədə qorunması ilə bir sıra ölkələrə nümunə ola bilər.

Sonra, ümumilikdə, 155 inzibati ərazi dairəsi üzrə nümayəndəyə, bələdiyyə sədrinə, polis sahə inspektoruna, post-patrul xidməti əməkdaşına hədiyyə və pul mükafatları verilib.

Qaliblər sırasında Culfa rayonu Ərəzin kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi də var. İcra nümayəndəsi Tünzalə İmanova ilə söhbət zamanı bildirdi ki, bu gün hər bir naxçıvanlı muxtar respublikada həyata keçirilən tədbirləri ürəkdən dəstəkləyir, abadlıq-təmizlik işlərində fəallıq göstərməyi özünün mənəvi borcu sayır. Onların əməyi dövlətimiz tərəfindən layiqincə dəyərləndirilir.

## Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə ilk iclası keçirilmişdir

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının yeni üzvləri haqqında təklifə baxılaraq təsdiq olunmuşdur.

Dekabrın 23-də Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə ilk iclası keçirilmişdir. İclasda “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 22-ci maddəsinə əsasən təşkilati işə baxılmış, komissiyanın sədri, sədr müavini və katibinin seçilməsi məsələsi müzakirə olunmuşdur. Müzakirələrdən sonra Qasımov Məhərrəm Əli oğlu Mərkəzi Seçki Komissiyasının sədri, Qədimov Əli Tofiq oğlu Mərkəzi Seçki Komissiyası sədrinin müavini, Eyvazov Elnur Həsənalı oğlu isə Mərkəzi Seçki Komissiyasının katibi seçilmişlər.

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti**

*Şahbuz rayonunda son illərdə müxtəlif təyinatlı obyektlərin həyata vəsiqə alması, yolların müasir tələblər səviyyəsində yenidən qurulması, körpülərin salınması, digər quruculuq tədbirləri bu bölgəni müasir rayona çevirib.*

## Son tamamlama işləri aparılır

Quruculuq tədbirləri həm rayon mərkəzinin, həm də kənd yaşayış məntəqələrinin simasını tamamilə dəyişib, mövcud problemləri aradan qaldırıb.

Cari ildə də rayonda bir sıra quruculuq tədbirləri reallaşdırılıb. Hazırda Daylaqlı kəndində məktəb, kənd və xidmət mərkəzləri üçün inşa olunan binalarda son tamamlama işləri həyata keçirilir. Qeyd edək ki, 120 şagird yerlik məktəb binası 3 mərtəbədən ibarətdir. İdman zalı, kitabxana, laboratoriyalar, şahmat və kompüter otaqları, elektron lövhəli siniflər yeni məktəb binasında tədrisin yüksək səviyyədə təşkilinə imkan verəcək. İnşaatçılar onlara yaradılmış hərtərəfli şəraitdən səmərəli istifadə edir, obyekti vaxtında təhvil vermək üçün səy və bacarıqlarını əsirgəmirlər.

Məktəb binasının yaxınlığında isə kənd mərkəzi üçün bina inşa olunub. Binada bu yaşayış məntəqəsində fəaliyyət göstərən dövlət qurumları üçün hərtərəfli iş şəraiti yaradılacaq.

Daha bir quruculuq ünvanı xidmət mərkəzinin binasıdır. Burada müxtəlif xidmət obyektləri fəaliyyət göstərəcək.

## Bələdiyyə torpaqlarının idarə olunması ilə bağlı seminar-müşavirə

*Ordubad rayonunda “Bələdiyyə torpaqlarının idarə olunmasının xüsusiyyətləri” mövzusunda seminar-müşavirə keçirilib.*

Seminar-müşavirəni giriş sözü ilə rayon İcra Hakimiyyətinin şöbə müdiri Etibar İsmayılov açaraq rayonda bələdiyyələr üçün yaradılan şəraitdən danışıb.

Seminar-müşavirədə “Torpaq sahəsi üzərində bələdiyyələrin mülkiyyət hüquqları” barədə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin baş məsləhətçisi, ədliyyə müşaviri Səttar Zamanov, nazirliyin Qanunvericilik şöbəsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmov çıxış edərək Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə metodik köməklik göstərilməsinin, onların fəaliyyətinə inzibati nəzarətin əhəmiyyətindən, bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi ilə bağlı qanunvericiliyin tələblərindən danışıblar.

Çıxışlarda qeyd edilib ki, istər kargüzarlıq, istərsə də bələdiyyə torpaqlarından səmərəli istifadə olunması və bu sahədə hüquq pozuntularının baş verməməsi xüsusi diqqət mərkəzində saxlanılır, bələdiyyələrə zəruri metodik köməklik göstərilir. Belə ki, bələdiyyə orqanları tərəfindən torpaq qanunvericiliyinin tələblərindən irəli gələn vəzifələrin düzgün yerinə yetirilməsi üçün son üç ildə tövsiyə xarakterli beş metodik vəsait hazırlanaraq bələdiyyələrə paylanıb. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, Ordubad rayonu ərazisində də torpaqlardan istifadə və onların idarə olunmasında nöqsanlara yol verilir. Bələdiyyə üzvlərinin hüquqi biliklərinin az olması, qanunvericiliyi düzgün mənimsəməmələri və işə laqeyd münasibət nəticəsində bələdiyyə torpaqlarının zəbt olunması, qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunsuz dəyişdirilməsi faktlarına rast gəlinir. Unutmaq olmaz ki, torpaqlardan istifadə qanunvericiliklə tənzimlənir. Heç kəs qanunsuz olaraq torpaqlardan istifadə edə, qeydə alınmış torpaq sahəsindən kənara çıxa, ümumi istifadədə olan yolu zəbt edə bilməz. Bələdiyyələr öz mülkiyyətində olan əmlakdan istifadə olunmasına qanun çərçivəsində nəzarət etməlidirlər. Hər bir bələdiyyənin vəzifəli şəxsi çalışmalıdır ki, bələdiyyənin ərazisində qanun pozuntusu baş verməsin. Bələdiyyələrin vəzifəli şəxsləri profilaktik tədbirlər həyata keçirərək yerli əhalinin nəzərinə çatdırmalıdırlar ki, torpaqların özbaşına tutulması, yəni zəbt edilməsi qanunla birmənalı şəkildə qadağan edilir. Bu əməli törətmiş şəxslər Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar məcəllələri ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Seminar-müşavirədə tədbir iştirakçılarına “Bələdiyyələrin statusu: hüquq və vəzifələr” kitabı təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi diqqət mərkəzindədir

***Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil alması və cəmiyyətə inteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” bu istiqamətdə görülən işlərin sistemli xarakter almasına, distant təhsilin tətbiqinə və bu sahədə müvafiq pedaqoji kadr hazırlığının təkmilləşdirilməsinə geniş imkanlar açmışdır. Dövlət proqramının icrası nəticəsində sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sahəsində mühüm nəticələr qazanılmışdır.***

Uşaqların məktəbəqədər təhsil müəssisələrinə cəlbi üzrə həyata keçirilən tədbirlər çərçivəsində əvvəlcə müvafiq yaşlı sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazası yaradılmışdır. Hazırda bazada bu kateqoriyadan olan 446 uşaq haqqında məlumat vardır. Ötən dövrdə 104 uşaq məktəbəqədər təhsil müəssisələrinə, 20 uşaq isə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə cəlb edilmişdir. Hazırda məktəbəqədər təhsil müəssisələrində 52, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində isə 13 sağlamlıq imkanları məhdud uşaq qeydiyyatdadır.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərin peşəkarlığını artırmaq üçün təkmilləşdirmə kurslarının təşkili vacib şərtdir. Çünki ixtisaslı kadrlar olmadan uşaqların məşğələlərə cəlbi mümkün deyil. Ötən dövrdə şəhər və rayon icra hakimiyyətləri, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Müəllimlər İnstitutu tərəfindən 232 müəllim, metodist və tərbiyəçinin iştirakı ilə 7 kurs keçirilmişdir. Naxçıvan Müəllimlər İnstitutu tərəfindən sağlamlıq imkanları məhdud uşaqlar üçün hazırlanan metodik vəsaitlərin elektron variantları muxtar respublikada fəaliyyət göstərən bütün məktəbəqədər təhsil müəssisələrinə təqdim edilmişdir.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası məqsədilə məktəbyaşlı sağlamlıq imkanları məhdud 138 uşaq ümumtəhsil məktəblərinin birinci siniflərinə, 2 uşaq isə Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbə cəlb edilmişdir. Fiziki imkanları məhdud uşaqların məktəb mühitinə tədricən uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına şərait yaradılmış, Naxçıvan şəhərində 9-cu sinfi bitirən sağlamlıq imkanları məhdud 16 şagird buraxılış imtahanlarından azad edilmişdir. Hazırda muxtar respublikanın məktəblərində sağlamlıq imkanları məhdud 825 uşaq təhsil alır. Tədris prosesində mütərəqqi təlim üsulları, eləcə də fənn kurikulumları tətbiq edilmiş, uşaqların müasir texnoloji avadanlıqlardan istifadə bacarıqlarının inkişafı diqqət mərkəzində saxlanılmış, onlarla aparılan işin səmərəliliyinin artırılması və xüsusi nəzarətin təmin olunması məktəb psixoloqlarına həvalə edilmişdir.

2014-cü il oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən uşaqların təhsilə cəlbini təmin etmişdir. Mərkəzdə server və çevirici avadanlıqlar quraşdırılmış, tədris sinfinə elektron lövhə, kompüter, smart kamera, monitor və digər texniki avadanlıqlar qoyulmuş, distant tədrisə cəlb olunmuş uşaqların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və veb-kameralar quraşdırılmış, 150 istifadəçi yeri yaradılmışdır. Bu da daha çox şagirdin videobağlantı vasitəsilə məsafədən tədris prosesinə qoşulmasına imkan verir. Mərkəzin müəllimlərinin və valideynlərin iştirakı ilə sistemdən istifadə qaydalarına dair seminarların keçirilməsi tədris imkanlarını genişləndirmişdir. Ötən müddətdə hərəkət qabiliyyəti məhdud olan 23 uşaq distant təhsilə cəlb edilmişdir. Onların təlim-tərbiyəsi ilə 4 müəllim məşğul olur. Mərkəzdə eşitmə qabiliyyəti məhdud 11 uşaqdan ibarət 2 qrup da yaradılmış və distant dərslərdə iştirakı təmin edilmiş, onlara xüsusi dərsliklər verilmiş, eləcə də bu uşaqlardan 3-ü Bakı şəhərində fəaliyyət göstərən xüsusi internat məktəbinə göndərilmişdir.

Hazırda sağlamlıq imkanları məhdud şəxslər mərkəzdə fəaliyyət göstərən brayl kitabxana, gözdən əlillər üçün brayl displeylər, sürətli internet, oxu materialını böyüdən avadanlıqlar, həmçinin yazı formatında olan kitabları səsləndirən oxu maşını, subtitrli filmləri nümayiş etdirən kinozal xidmətlərindən istifadə edirlər. Mərkəzin kitabxana fondunun zənginləşdirilməsi daim diqqət mərkəzindədir. Ötən müddətdə Naxçıvan Muxtar Respublika Kitabxanasından buraya 147 adda brayl kitab verilmiş, mərkəzdə 10 adda yeni brayl kitab çap edilmişdir. Hazırda kitabxana fondunda 952 kitab vardır. Mərkəzdə səsyazma studiyasının yaradılması audio kitabxananın da fondunun zənginləşdirilməsinə imkan verir. Proqramın əhatə etdiyi dövr ərzində audio kitabxana fonduna 626 audio material, elektron kitabxana fonduna isə 155 yeni elektron kitab əlavə edilmişdir. Bu gün audio kitabxanada 937 kitab, elektron kitabxana fondunda isə 535 elektron kitab vardır. Mərkəzdə “Könül işığı” adlı aylıq brayl jurnalının nəşrinə də başlanmışdır.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində zehni və nitq inkişafının ləngiməsi olan uşaqların sosial reabilitasiyası defektoloji bölmə tərəfindən həyata keçirilir. Bölmənin təlim otağı elektron lövhə və digər tədris ləvazimatları ilə təmin edilmiş, kinekt və intellektual oyunlar otağı yaradılmışdır. Ötən dövrdə Bakı Şəhər Nitq İnkişaf Mərkəzinin baş mütəxəssisi 3 ay müddətində defektoloqlara distant təlim keçmiş, müəllim-defektoloqlar 4 dəfə Bakıya ezam edilmişlər. Həmçinin Türkiyə Respublikasının Düzcə Rəhbərlik və Araşdırma Mərkəzinin defektoloq-loqopedi Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində defektoloji bölməyə dəvət edilmiş, sağlamlıq imkanları məhdud uşaqlar, valideynlər və defektoloji bölmənin mütəxəssisləri ilə görüşü təşkil edilmişdir. Bundan başqa, uşaqların ünsiyyətqurma bacarığının inkişafı və sosial reabilitasiyası məqsədilə Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı da istifadəyə verilmişdir. Hazırda burada müvafiq kateqoriyadan olan 88 uşağın müalicəsi həyata keçirilir.

Ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların dərslərdə iştirakının təmin olunması və fərdi nəticələrinin müəyyənləşdirilməsi məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən şagird, müəllim və valideynlərin iştirakı ilə maarifləndirici söhbətlər aparılmış, 4600-dən çox broşür paylanılmışdır. Bu günədək Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində uşaq serebral iflici, autizm, daun sindromu və periferik sinir sistemi xəstəlikləri olan uşaqların valideynləri ilə 5 dəfə maarifləndirici görüşlər keçirilmiş, bu kateqoriyadan olan uşaqlarla təlim-tərbiyənin təşkili, evdə davranış və ünsiyyətqurma bacarıqlarının inkişaf etdirilməsinə dair məsləhətlər verilmişdir. Həmçinin ötən müddətdə müvafiq kateqoriyalı 334 uşaq məktəbli geyimi və ləvazimatları, o cümlədən bu il 261 uşaq qış geyimi ilə təmin olunmuşdur.

Bu gün yuxarı siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə cəlbi qarşıda duran əsas vəzifələrdəndir. Dövlət proqramında bu istiqamətdə də müvafiq işlərin görülməsi nəzərdə tutulmuşdur. Ötən dövrdə sağlamlıq imkanları məhdud uşaqlar şəhər və rayon məşğulluq mərkəzləri tərəfindən maraqlarına və əmək bazarının tələblərinə uyğun peşə və ixtisaslara yönləndirilmişlər. Belə ki, sağlamlıq imkanları məhdud 4 uşaq Naxçıvan Şəhər Peşə Liseyinə, 5 gənc Şərur Texniki-Peşə və Sürücülük Məktəbinə, 12 gənc Naxçıvan Regional Peşə Tədris Mərkəzinə cəlb edilmiş, 3 nəfər isə Naxçıvan Dövlət Texniki Kollecinə qəbul olunmuşdur.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların məktəbdənkənar müəssisələrə cəlbi istiqamətində də davamlı işlər görülür. Qeyd olunan dövrdə müvafiq kateqoriyalı 173 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə, o cümlədən 51 uşaq şahmat məktəblərinə cəlb edilmişdir. Həmçinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində məktəb təhsili olmayan görmə qabiliyyəti məhdud şəxslər üçün brayl kurslar təşkil olunmuş, 4 nəfər kurslarda iştirak etmişdir. Musiqi duyumu olan və bu sənətin sirlərinə yiyələnməyə həvəsi olan uşaqların musiqi təhsili alması da diqqət mərkəzində saxlanılmış, ötən dövrdə müvafiq kateqoriyalı 47 uşağın musiqi məktəblərində təhsil alması təmin edilmişdir. Hazırda muxtar respublikanın musiqi məktəblərində sağlamlıq imkanları məhdud 108 uşaq təhsil alır.

Sağlamlıq imkanları məhdud uşaqlar arasında müxtəlif yarış və müsabiqələrin keçirilməsi onların asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, istedadlarının üzə çıxarılması, əqli və fiziki inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir. Buna görə də bu kateqoriyadan olan uşaqlar arasında kinekt və intellektual oyunlar, şahmat, dama, darts, stolüstü tennis, futzal, yüngül atletika və xalq uşaq oyunlarından ibarət əyləncəli yarışlar, görmə qabiliyyəti məhdud şəxslər arasında brayl yazı və oxu müsabiqələri keçirilmiş, audio kitabxananın fəal dinləyiciləri ilə görüşlər təşkil edilərək hədiyyələr verilmişdir. Eşitmə qabiliyyəti məhdud uşaqların iştirakı ilə müxtəlif səhnəciklərin təqdimatı və intellektual oyunların, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Naxçıvanım mənim” mövzusunda sağlamlıq imkanları məhdud uşaqlar arasında rəsm, əl işləri və musiqi müsabiqələrinin keçirilməsi də bu mənada yaddaqalan tədbirlər olmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların tətil günlərini səmərəli keçirmələri üçün təşkil olunan gəzinti və ekskursiyalar da onların cəmiyyətə inteqrasiyasını sürətləndirir. Yay tətili günlərində 99 məhdud fiziki imkanlı uşaq valideynlərinin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzinə göndərilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər sırasında Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil olunan məşğələ və idman qruplarının da xüsusi yeri vardır. Ötən iki il ərzində mərkəzdə təşkil olunan müxtəlif dərnəklərdə 140 uşaq iştirak etmişdir. Həmçinin bu il yaradılan əmək terapiyası otağına sağlamlıq imkanı məhdud 20, müxtəlif idman qruplarına 45, bədii gimnastika məşqlərinə isə 12 qız iştirakçı cəlb olunmuşdur.

“2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası istiqamətində yeni mərhələnin əsasını qoymuşdur. Artıq sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sistemli xarakter almışdır. Bu sahədə görülən işlər gələcəkdə də davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

# Sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi genişləndirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsi yaradılmış və 20 adda elektron xidmət göstərilməsi nəzərdə tutulmuşdur. Həmin elektron xidmətlərin hazırda 15-dən istifadə olunur. Xidmətlərin elektronlaşdırılması həm kağız daşıyıcılarından istifadənin və vaxt itkisinin aradan qaldırılması, həm də şəffaflığın təmin olunması məqsədini daşıyır.

Hazırda məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində mütərəqqi üsullar tətbiq edilməkdədir. Məcburi dövlət sosial sığortahaqqı ödəyiciləri məcburi dövlət sosial sığorta haqlarını həm fondun internet səhifəsində onlayn ödəmə bölməsinə daxil olmaqla plastik kartlar vasitəsilə, həm banklarda nağd qaydada onlayn ödəniş yolu ilə, həm də yerli poçt şöbələri vasitəsilə ödəyə bilərlər.

Sığorta-pensiya sistemində əhaliyə göstərilən xidmətlərin müasir əsaslarla təşkili sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlər sırasında məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi elektron xidmətinin tətbiqi xüsusi qeyd olunmalıdır. Bu elektron xidmət sığortaedənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və torpaq mülkiyyətçiləri tərəfindən məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi prosesini xeyli asanlaşdırmışdır. Fondun təklif etdiyi elektron xidmət vasitəsilə sığortaedənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və torpaq mülkiyyətçiləri məcburi dövlət sosial sığorta vəsaitlərinin real vaxt rejimində ödənilməsini həyata keçirə bilərlər. Bunun üçün fondun internet səhifəsində ***(www.dsmf.nakhchivan.az)*** təqdim olunan elektron xidmətlər bölməsindən “Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi” xidmətini seçmək və ödənişi həyata keçirmək mümkündür.

Məcburi dövlət sosial sığortahaqqının ödəyiciləri belə sığorta haqlarını həmçinin banklarda nağd qaydada onlayn ödəmə imkanına malikdirlər. Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu üzrə onlayn ödəniş vasitəsilə hər ay orta hesabla 2400 nəfər tərəfindən 91 min manat məcburi dövlət sosial sığortahaqqı ödənilir.

Mütərəqqi üsullardan biri də məcburi dövlət sosial sığorta haqlarının poçt şöbələrindən ödənilməsidir. Belə ki, Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları ilə poçt şöbələri arasında bağlanmış müqaviləyə əsasən, 2014-cü ilin noyabr ayından məcburi dövlət sosial sığorta haqlarının poçt şöbələrindən ödənilməsi təmin edilmişdir. Bununla da, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçiləri və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər rayon mərkəzlərinə getmədən, əlavə vəsait sərf etmədən və vaxt itirmədən kəndlərdəki poçt şöbələrindən məcburi dövlət sosial sığorta haqlarını ödəyə bilirlər. Hal-hazırda poçt şöbələri vasitəsilə hər ay orta hesabla 3900 nəfər tərəfindən 46 min 700 manat sosial sığortahaqqı ödənilir.

Sığorta-pensiya sisteminin əsas məqsədi hər bir vətəndaşı sosial sığorta haqlarını ödəməkdə maraqlı olmağa dəvət etməkdir. Bütün sığortaolunanlara məlumdur ki, artıq onlar fərdi uçot sistemində qeydiyyata durur və onlara bəlli bir hesab açılır. İşəgötürən də, işçi də sosial sığorta haqlarını vaxtlı-vaxtında ödəsə, həmin hesabda daha çox məbləğ toplanacaq və sığortaolunan sosial sığorta hadisəsi ilə üzləşdikdə onun qazandığı sığorta stajı və fərdi hesabına toplanan məbləğdən qanunvericiliyin tələblərinə uyğun formada bəhrələnə biləcəkdir.

Qeyd etmək lazımdır ki, fond tərəfindən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə sığortaolunanlara və sığortaedənlərə göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə tətbiq edilən layihələr nəticəsində bütün mövcud proseslərin, yəni həm məcburi dövlət sosial sığorta haqlarının toplanması və fərdi uçotun qurulması, həm pensiyaların məbləğinin hesablanması və təyin edilməsi, həm də onların ödənişinin avtomatlaşdırılması tam təmin edilmişdir.

Bütün bu xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi istiqamətində görülən ardıcıl işlərdən biri də əhalinin sığorta-pensiya sistemi və bu sistem üzrə yaradılmış elektron xidmətlər barədə məlumatlandırılmasıdır. Bunun üçün Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu yerlərdə maarifləndirici tədbirlər həyata keçirir. Əhalinin maarifləndirilməsi baxımından keçirilən tədbirlərin çox böyük əhəmiyyəti var. Çünki həmin tədbirlər nəticəsində ayrı-ayrı rayonlardan olan sosial sığorta ödəyicilərinə və pensiyaçılara sığorta-pensiya sistemi, məcburi dövlət sosial sığorta haqlarının sistemində tətbiq olunan mütərəqqi üsullar, eləcə də elektron xidmətlər haqqında ətraflı və geniş məlumatlar verilir.

**Hürü MƏHƏRRƏMLİ**
**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Sosial Müdafiə Fondunun**
**əməkdaşı**

# Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2015-ci ildə fəaliyyəti haqqında illik

## MƏRUZƏ

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) muxtar respublikada insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli təmin edilməsi və etibarlı müdafiəsinə yönəlmiş tədbirləri 2015-ci ildə də davam etdirmişdir.

2015-ci ildə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 103 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərin 33-nü şikayətlər, 70-ni isə ərizələr təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətlərin Müvəkkilin səlahiyyətlərinə aid olmaması səbəbindən 5 şikayətə baxılmasından imtina edilmişdir.

28 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 12-si isə təmin edilmişdir. 16 şikayətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmişdir.

2015-ci ildə də Müvəkkil insan hüquq və azadlıqlarının təbliği və hüquqi maarifləndirmə sahəsində fəaliyyətini əsasən insan hüquqlarının müxtəlif istiqamətləri üzrə və müxtəlif sosial qruplara ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi və maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin təbliği və tətbiqi məqsədilə müvafiq orqanların və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə konfrans keçirilmiş və görülən işlər müzakirə edilmişdir.

İnformasiya əldə etmək hüququnun səmərəli təmin edilməsi və bu sahədə hüquqi maarifləndirmə məqsədilə aid qurumlarla birgə muxtar respublikanın kütləvi informasiya vasitələri üçün seminar-müşavirə keçirilmiş, iştirakçılara kütləvi informasiya vasitələrində hərbi proqram və materialların hazırlanma qaydaları və informasiya təhlükəsizliyi ilə bağlı qanunvericiliyin tələbləri barədə geniş məlumat verilmişdir.

İnsan hüquqları sahəsində əlamətdar günlər 18 iyun Azərbaycan Respublikasında İnsan Hüquqları Günü, 12 noyabr Konstitusiya Günü, 10 dekabr Beynəlxalq İnsan Hüquqları Günü qeyd edilmiş və müvafiq tədbirlər keçirilmişdir.

Ümumilikdə, 2015-ci il ərzində Müvəkkil təsisatı tərəfindən müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə 80 tədbir keçirilmiş, o cümlədən hüquqi maarifləndirici vəsaitlər hazırlanaraq aidiyyəti qurumlara təqdim edilmişdir.

2015-ci ildə də hərbi qulluqçuların hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə istiqamətində fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlahiddə Ümumqoşun Ordu və Naxçıvan Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış tədbirlər planına əsasən, muxtar respublika ərazisindəki birləşmə və hərbi hissələrdə müvafiq tədbirlər keçirilmiş, insan hüquqlarına dair vəsaitlər təqdim edilmişdir.

2015-ci ildə məhkumların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmənin həyata keçirilməsi davam etdirilmiş, Müvəkkil və aparatın əməkdaşları müntəzəm olaraq Ədliyyə Nazirliyinin tabeliyində olan cəzaçəkmə müəssisələrində olmuş, məhkumların hüquqlarının təmin edilməsi üzrə maarifləndirici tədbirlər davam etdirilmiş, müəssisənin kitabxanalarına hüquqi vəsaitlər verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 7 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 5 məhkum barəsində isə cəzanın növünün dəyişdirilməsi tətbiq edilmişdir. Ümumilikdə, 2015-ci il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 12 məhkum barəsində belə humanist tədbirlər tətbiq edilmişdir.

Müvəkkil Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 28 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 111 başçəkmə həyata keçirmiş, Preventiv mexanizmin fəaliyyəti ilə bağlı maarifləndirmə tədbirlərində 1578 nəfər iştirak etmişdir.

Ötən il ərzində Müvəkkil aparatında beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri və xarici ölkələrin ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə görüşlər keçirilmiş, beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır.

Ötən ildə informasiya və ictimaiyyətlə əlaqələrin təşkili sahəsində işlər davam etdirilmişdir.

Müvəkkil təsisatının rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yenilənməsi, elektron kitabxana bazasının daha da zənginləşdirilməsi, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması, elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə müvafiq qurumlar tərəfindən səyyari xidmətlərin göstərilməsi vətəndaşların müraciət etmək imkanlarının daha da asanlaşdırılmasında mühüm rol oynamışdır.

Qeyd edilməlidir ki, son iyirmi ildə Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı, sosial-iqtisadi layihələrin ardıcıl olaraq həyata keçirilməsi əhalinin rifah halının getdikcə yaxşılaşmasına, nəticə etibarilə, insan hüquqlarının və azadlıqlarının daha səmərəli təmin edilməsinə və etibarlı müdafiəsinə geniş imkanlar yaratmışdır.

Müvəkkil təsisatı bundan sonra da üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini davam etdirəcəkdir.

# Turizm: keçilən yol və yeni vəzifələr

***Sərbəst səyahət edib dünyanın gözəllikləri ilə tanış olmaq, mənalı istirahət edib öz mənəvi zənginliyini artırmaq hər bir insanın ən böyük hüquqlarındandır. Yüksək zövq, mədəni tələbat və mənəvi inkişafın bir nöqtədə kəsişdiyi turizm bu baxımdan müasir cəmiyyətin inkişaf göstəriciləri arasında mühüm yer tutur. Turizm tələbi elə bir mərhələdə yaranır ki, bu zaman sabitlik, kifayət qədər yüksək gəlir və sosial rifah təmin olunur.***

Müstəqillik illərində ölkəmizdə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı mənzərəsinə nəzər saldıqda məhz yuxarıda qeyd olunanlarla tanış oluruq. Bunu, ümumən, dünya turizminin XX əsrin 50-ci illərindən başlayan inkişaf yolu ilə müqayisə etdikdə tam məntiqi bir qanunauyğunluq görürük. Çünki azərbaycanlılar həm mədəni, həm də həyat səviyyəsi baxımından bütün inkişaf etmiş ölkələrdə yaşayan xalqlarla eyni səviyyədədir.

Digər fəaliyyət növləri ilə, məsələn, ticarət və ya tikinti ilə müqayisədə turizm nisbətən yeni bir sahədir. Onun inkişafı üçün insanın səyahət etmək arzusundan əlavə, qonaqpərvərlik sektoruna aid olan bir çox sahələrdə mühüm işlər görülməli, həm gələn turistlərin, həm də səfərlərə gedən turistlərin rahat səyahətləri üçün nə tələb olunursa, o da tətbiq edilməlidir. Çünki müasir turistlər çox tələbkardırlar və onlar səyahətlər zamanı bütün xidmətlərdən yüksək peşəkarlıq gözləyirlər. Müstəqillik illərində muxtar respublikamızda turizmin inkişafı istiqamətində görülən işlər də, nəticə etibarilə, buraya səyahət edən bütün turistlərdə dərin məzmunlu milli qonaqpərvərliklə müşayiət olunan yüksəkkeyfiyyətli xidmətlərin göstərilməsi və turizm sahəsində fəaliyyət göstərənlərin peşəkarlığının artırılması yönündə olmuşdur.




Hazırda Naxçıvan Muxtar Respublikasında turizmin bir çox forma, tip və növləri istiqamətində geniş perspektivlər vardır. Bu təkcə son 20 ildə gəlmə turizmin inkişafı ilə əldə olunmuş nəticələrdə də özünü göstərir. Belə ki, 1995-ci illə müqayisədə 2015-ci ildə Naxçıvana gələn turistlərin sayının 10 dəfədən çox artaraq 390 min nəfərə çatması və regionda mövcud olan turizm-rekreasiya ehtiyatlarının fəal iqtisadi dövriyyəyə cəlb olunması bu baxımdan diqqəti cəlb edir. Naxçıvan ildən-ilə abadlaşdırılıb gözəlləşdikcə buraya səyahət edənlərin də sayı artmaqdadır. Bütün bunlar Şərqlə Qərbin qovşağında yerləşən Naxçıvanın bugünkü inkişafını, Azərbaycanın mədəniyyətini dünyaya tanıtmaq üçün yaxşı fürsətdir. Yalnız, təəssüf ki, belə bir imkan yaxın keçmişdə olmamış, əksinə, sovetlər dövründə xariclə sərhədyanı bir region kimi Naxçıvan Muxtar Respublikasına gəlmək istəyən xarici turistlərin səyahətləri məhdudlaşdırılmış, buraya gələnlər üçün xüsusi icazə tələb olunmuşdur.

Artıq həmin icazələr dövrü arxada qalmış və Azərbaycan bütün sahələrdə olduğu kimi, turizmdə də öz gücünü ortaya qoya bilmək imkanı qazanmışdır. İndi işğalçı qonşu ölkədən başqa, bütün dünya ölkələrinə səyahət edə bilən azərbaycanlılar hər yerdə ən tələbkar və ən səxavətli turistlər kimi hörmətlə qarşılanırlar. İnsanların gəlirləri artdıqca istirahət və səyahətlərə də olan meyilləri artır. Lakin həm siyasi maraqlarımız, həm də iqtisadi mənafelərimiz baxımından turizmdən gözlənilən əsas nəticələrin – ölkəmizin tanıdılması və valyuta gəlirlərinin əldə olunması üçün daxili və gəlmə turizmin inkişaf etdirilməsi get-gedə öz aktuallığını daha ciddi şəkildə ortaya qoyur. Bu isə turizm sahəsində ümumi infrastruktur yaradılmasından tutmuş kadr təminatına, reklam-marketinqdən və milli qonaqpərvərlik elementlərindən istifadəyə qədər bütün sahələrdə məqsədyönlü işlər tələb edir.

Bəs turizmin inkişafı ilə ölkənin tanıdılması və gəlirlərin əldə olunması üçün hansı məqsədyönlü işlər tələb olunur? İlk olaraq qeyd edək ki, ötən müddət ərzində həm ölkəmizdə, həm də muxtar respublikamızda bu istiqamətdə mühüm nəticələr əldə olunmuşdur. Gələn turist sayını bildirən statistik məlumatlardan başqa, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin turizm sahəsində görülmüş işlər barəsindəki arayışında bütün il boyu muxtar respublikamızın turizm potensialından istifadə məqsədilə xeyli işlər görüldüyü, müxtəlif tədbirlər həyata keçirildiyi, sərgilərdə iştirakın təmin olunduğu bildirilir. Bunlar, sözsüz ki, ümumi işə öz töhfəsini verən müsbət addımlardır. Yəni bu gün əcnəbi turistlərin ölkəmizi tanıması, öz ölkələrinə Azərbaycan, azərbaycanlıların qonaqpərvərliyi haqqında müsbət təəssüratla dönmələri nə qədər vacibdirsə, turizmdən gələn gəlirlərə, xüsusən beynəlxalq turizmdən gələn valyuta gəlirlərinə də o qədər ehtiyacımız vardır. Xüsusən dünya bazarında neftin qiymətlərinin dəfələrlə aşağı düşməsi turizm və bunun kimi neftə alternativ olan digər ixrac potensialımızın dərhal hərəkətə gətirilməsi zərurətini ortaya qoyur. Bu günlərdə turizm fəaliyyəti üçün xüsusi lisenziyanın ləğv olunması da bu sahədə kiçik sahibkarlıq fəaliyyətinə geniş meydan açır. Bu da turizmin inkişafı üçün yalnız bir nəfərin və ya bir qurumun deyil, hər kəsin qarşısına yeni vəzifələr qoyur. Əgər turizm hər kəs üçün faydalıdırsa, onun inkişafına da hər kəs öz töhfəsini verməlidir.

Naxçıvan turizm ehtiyatları ilə çox zəngindir. Rəngarəng turizm ehtiyatları, muxtar respublikanı əhatə edən mükəmməl sosial infrastruktur və yüz faiz təmin olunmuş asayiş müasir turistlərin ən çox arzuladığı şərtlərdəndir. Naxçıvanlıların qonaqpərvərliyi, muxtar respublikanın bugünkü iqtisadi imkanları hazırda buraya səfər edən turistlərin sayının daha çox olmasına imkan yaradır. Lakin artıq elə bir vaxt gəlmişdir ki, kəmiyyət amilindən keyfiyyətə keçmə zərurəti də yaranmışdır. Başqa sözlə, turizm baxımından ilə yekun vurarkən oturub təkcə ümumi rəqəmlərlə kifayətlənmək kafi deyil. Yola saldığımız ildə turizmdən nə qədər gəlirlər əldə etdik? Görəsən bu il nə qədər naxçıvanlı turist istirahət üçün xaricə deyil, öz turizm məkanlarımıza üz tutdu? Axı xaricdə xərclədiyimiz valyuta vəsaitləri öz ümumi daxili məhsulumuza çevrilə bilərdi. Və yaxud istirahət məkanlarımızdakı servis qiymətləri yaxın bölgələrdəki analoji qiymətlərlə müqayisədə nə qədər münasibdir? Hər il böyük coşqu ilə keçirilən Novruz bayramındakı el şənliklərini çıxsaq, ilin qalan bütün dövrlərində şəhər və rayon icra hakimiyyətləri turist marağını cəlb edəcək hansı yaddaqalan kütləvi tədbirlər keçirdilər? Bələdiyyələrimiz bu sahə üzrə kiçicik bir reklam xarakterli hansı işləri görüblər? Turizmin inkişafına hamıdan çox diqqət yetirməli olan bu qurumlar öz internet saytlarında (əgər varsa) turizm və qonaqpərvərliklə bağlı hansı elektron resurslar yerləşdiriblər? Artıq 11 ildir ki, Naxçıvanda Turizm və otelçilik ixtisası üzrə ali təhsilli kadrlar hazırlanır. Muxtar respublikada onların gücündən necə istifadə olunur və ya bu ixtisas üzrə magistr olmuş gənclər yenidən kadr hazırlığına necə cəlb olunub? Bu təhsil müəssisələrimiz Naxçıvanın turizm marşrutlarının hazırlanmasına hansı töhfələri veriblər və bu istiqamətdəki hansı araşdırmalar vardır? Bu məsələlər növbəti yazılarımızın mövzularıdır.

Hamı bilir ki, turizm maraqlı və gəlirli bir sahə olmaqla bərabər, eyni zamanda daim diqqət tələb edən bir sahədir. Odur ki, gələcəkdə çətinliklərdən qorxmadan bütün cari məsələlərin yerlərdə operativ həll olunması turizm gəlirlərimizin büdcəmizdə daha çox hiss olunmasına və bu vacib sahədən bütün gözləntilərimizi əldə etməyə imkan verəcəkdir. Çətin və həlli mürəkkəb olan heç nə yoxdur burada. Hər halda daş daşımaq deyil, gülərüz, peşəkar xidmət və bir də təşəbbüskarlıqdır turizmdə tələb olunan.

**Əli CABBAROV**

## Səxavət İsgəndər oğlu Kəngərli



Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, tanınmış jurnalist Səxavət İsgəndər oğlu Kəngərli 2015-ci il dekabr ayının 22-də, ömrünün 81-ci ilində vəfat etmişdir.

Səxavət Kəngərli 1934-cü il dekabrın 31-də Naxçıvan şəhərində anadan olmuşdur. 1957-1962-ci illərdə Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda ali təhsil alan Səxavət Kəngərli ilk əmək fəaliyyətinə 1962-ci ildə Şahbuz rayon Kolanı kənd məktəbində rus dili və ədəbiyyatı müəllimi kimi başlamış, 1963-1965-ci illərdə Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində işləmişdir. 1965-1991-ci illərdə "Şərq qapısı" qəzetində müxtəlif vəzifələrdə çalışan Səxavət Kəngərli 1991-2000-ci illərdə qəzetin baş redaktoru olmuş, uzun illər mətbuat sahəsində səmərəli fəaliyyət göstərdikdən sonra 2009-cu ildə təqaüdə çıxmışdır.

Ölkə mətbuatında və "Şərq qapısı" qəzetində müxtəlif vaxtlarda yüzlərlə məqaləsi dərc olunan Səxavət Kəngərli dövlətçiliyə sədaqətli və təbiətcə sadə insan, gənc jurnalistlərin yaxın məsləhətçisi idi. Muxtar respublikanın inkişafı və həyata keçirilən quruculuq işləri onun daim müraciət etdiyi mövzular olmuşdur.

Əməyi dövlətimiz tərəfindən qiymətləndirilən, 1990-cı ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2009-cu ildə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülən Səxavət İsgəndər oğlu Kəngərlinin xatirəsi unudulmayacaqdır.

Allah rəhmət eləsin!

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Nazirlər Kabineti**

## O, istedadlı jurnalist, mətbuatın cəfakeşi, vətənpərvər insan idi

*Həmişə olduğu kimi, bu il də dekabrın 31-ni səbirsizliklə gözləyirdik. Həmin gün başqalarından fərqli olaraq biz həm də Səxavət müəllimin ad gününü qeyd edirdik. Ağsaqqal dostumuz Səxavət Kəngərli bizi – jurnalistikanın sirlərini öyrətdiyi həmkarlarını başına yığar, yaddaqalan xatirələrini danışar, keçmiş günlərə səyahət edər, qəzetdə gedən yazılarımıza münasibətini bildirər, tövsiyələrini verərdi. Bu il dekabrın 31-ni onsuz keçirəcəyik. Daha bizi başına yığmayacaq, keçmiş günlərə səyahət etməyəcək, tövsiyələrini, məsləhətlərini verməyəcək.*

Bu yazını qələmə alanda Səxavət Kəngərli ilə birgə işlədiyim dövrün bəzi məqamlarını gözlərim önünə gətirirəm. Zahirən zabitəli görünən bu insanın daxilən necə mehriban, qayğıkeş, işinə məsuliyyətli bir jurnalist olduğunu bir daha təsdiqləyirəm.

**Ötən günlərə qayıdış:** 2002-ci ilin isti iyun günlərinin birində "Şərq qapısı" qəzetinə işə dəvət olunanda burada Səxavət Kəngərli, Cəlil Vəzirov kimi ölkə mətbuatında tanınmış və özlərini təsdiq etdirmiş jurnalistlərin çalışdığını bilirdim. Belə təcrübəli qələm sahibləri ilə birgə çalışmağın məsuliyyətini düşünəndə təklifdən imtina etmək istədim. Redaksiyada baş redaktorla xeyli söhbət etdik. Düşündüklərimi ona dedim. Mərhum Məmməd Məmmədovun muxtar respublikada mətbuatın inkişafına böyük qayğı göstərilməsi, bu qayğıya əli qələm tutan ziyalıların əməli işlə cavab verməli olduqları üçün yaradılan şərait barədə söhbətini indi də xatırlayıram. Və o söhbətdən sonra qəzetdə işləməyə razılıq verdim. Bundan sonra baş redaktor mənə Səxavət Kəngərli ilə bir otaqda oturmağı məsləhət bilərək dedi ki, təcrübəlidir, qayğıkeşdir. Ondan öyrənməyə dəyər.

Səxavət müəllimə məxsus olan bu keyfiyyətləri onunla birgə işlədiyimiz dövrdə, demək olar ki, hər saat, hər gün gördüm.

Səxavət Kəngərli ömrünün yarıdan çoxunu mətbuatda keçirmişdi. Müxbir də işləmişdi, şöbə müdiri də, redaktor müavini də, baş redaktor da. 1991-ci ildən 2000-ci ilədək "Şərq qapısı" qəzetinin baş redaktoru vəzifəsində çalışmışdı. Qələm dostumuzun çalışdığı bu illəri dəqiq xatırlamaqda məqsədim bir məqamı xüsusi vurğulamaqdır. Bu illərdə Səxavət Kəngərli hər kəsə nəsib olmayan bir ömür yaşamışdı. Ona görə də Səxavət müəllimin ömür yolu, mətbuatdakı fəaliyyəti bugünkü gənclik üçün bir məktəbdir, örnəkdir. O, 1991-1993-cü illərdə, ulu öndərimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə "Şərq qapısı" qəzetinin baş redaktoru olmuşdu. Ulu öndərimizdən dəyərli məsləhətlər almışdı.

Söhbətlərində deyirdi ki, blokada şəraitində yaşayan, yolları hər tərəfdən bağlanan Naxçıvan həm də informasiya blokadasına salınmışdı. Görkəmli dövlət xadimi Heydər Əliyev Ali Məclisin Sədri seçilənədək redaksiya, demək olar ki, bağlanmaq üzrə idi. Həftədə bir nömrə buraxa bilirdik. Çünki bütün sistem dağılmış, qəzet yaddan çıxmışdı. Maliyyə vəsaitimiz yox idi. Ölkədən tamamilə təcrid olunan muxtar respublika, doğrudan da, dənizdə sükansız gəmiyə bənzəyirdi. Belə halda kim idi qəzetlə maraqlanan? Belə vəziyyətdə işləməyin, qəzet çıxarmağın, muxtar respublikada baş verən hadisələri geniş oxucu kütləsinə çatdırmağın çətinliyini özünüz fikirləşin, o vəziyyəti gözləriniz önünə gətirin. Məhz ulu öndər Heydər Əliyevin gündəlik və böyük qayğısı ilə "Şərq qapısı" qəzeti, necə deyərlər, yenidən doğuldu, yenidən həyata qayıtdı. Onun tövsiyəsi ilə həm də səkkiz səhifəlik bülleten buraxmağa başladıq. Həmin bülletenləri 20-25 min tirajla çap edib Bakıya göndərirdik ki, Azərbaycan əhalisi ulu öndərimizin Naxçıvandakı fəaliyyəti ilə tanış olsun, muxtar respublikadakı mövcud şəraitdən məlumat əldə etsin.

Bugünkü gənc jurnalistlər, eləcə də mətbuat üçün kimdir Səxavət Kəngərli? Bu sualın geniş cavabını yığcam şəkildə belə ümumiləşdirərdim: öyrənilməli, obyektiv, operativ, müraciət etdiyi mövzuya yaradıcılıqla yanaşan, qərəzsizliyi başlıca meyar kimi götürən bir jurnalist. Onunla işlədiyim müddət ərzində bir dəfə də olsun, görmədim ki, o, bu gün təhvil verəcəyi yazını sabaha saxlasın. Özünəməxsus yazı üslubu olan Səxavət Kəngərli həm də jurnalistikanın müxtəlif janrlarında qələm işlətməyi bacarırdı. Yazını hazırlayarkən redaksiyanın arxivində saxlanılan onlarla qəzet səhifələrini vərəqlədim. Bu qənaətimin doğruluğunu bir daha gördüm. İstər xəbər, zarisovka, reportaj, oçerk, istərsə də felyeton janrlarında yazdıqları bugünkü jurnalistikanın da tələblərinə tam cavab verir. Bir-birindən fərqli olan bu janrlarda Səxavət Kəngərlinin jurnalist istedadı özünü bütün dolğunluğu ilə göstərir.

Səxavət müəllim haqqında danışarkən onun redaktor kimi fəaliyyətindən yan keçmək olmaz. Bu barədə bir neçə kəlmə deməklə yuxarıdakı sualın cavabını bir qədər genişləndirmək istəyirəm. Onun redaktorluğu dövründə mən sıravi kənd müəllimi işləmişəm. Müəllim işləyə-işləyə qəzetlə əlaqə saxlamağım barədə yuxarıda da dedim. Onu da əlavə etmək istəyirəm ki, Səxavət Kəngərlinin redaktor otağının qapısı hamının üzünə açıq olurdu. Xüsusilə də qələm sahiblərinin və gənclərin üzünə. Dəfələrlə otağında olmuşam, söhbətlərini dinləmişəm, tövsiyələrini eşitmişəm. Qəzetə, mətbuata belə ürəkdən bağlanan insanla söhbətlərdən zövq almışam. Hansı mövzuda yazmaq və necə yazmaq barədə tövsiyələri bu gün də əlimdən tutur.

Hər il mətbuat bayramı ərəfəsində redaksiya əməkdaşları Səxavət müəllimlə onun evində görüşürdü. Bu ilin iyul ayında – milli mətbuatımızın 140 illiyi ərəfəsində yenə də Səxavət müəllimin evinə yığışmışdıq. Çay süfrəsi arxasında mətbuat günü münasibətilə onu təbrik etdik. Suallarımızdan da qalmadıq:

**–Səxavət Kəngərlinin həyatında mətbuat..?**

– Səmimiyyətlə deyim ki, Səxavət Kəngərli ömrünün mənasını mətbuatda tapıb. 42 il qələmlə yol yoldaşlığı etmişəm. Mən qələmə, qələm isə mənə sadiq olub. Həyatda qazandığım nə varsa, bunun üçün mətbuata borcluyam.

Mətbuatın bugünkü səviyyəsi, bu sahəyə göstərilən qayğı barədəki sualımızı belə cavablandırdı:

– Həyatımızın bütün sahələri kimi, mətbuat da daim qayğı istəyir. Bir mətbuat işçisi kimi sevinirəm ki, bu qayğı bu gün yetərincədir. Bu da mətbuatda uğurlar qazanılmasına şərait yaradıb. Mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, əməkdaşların əməkhaqlarının artırılması, azad sözə geniş meydan verilməsi, jurnalistlərin fəaliyyətinin qiymətləndirilməsi mətbuatın inkişafını şərtləndirən amillərdir. Naxçıvanda bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Belə şəraitdə heç bir mətbuat işçisinin zəif işləməyə haqqı yoxdur.

* * *

Bu gün aramızda yoxdur Səxavət Kəngərli. Yeri görünür. Onu tanıyanlar yaşadıqca da Səxavət müəllimin yeri görünəcək. Təsəllini onda tapırıq ki, o, mətbuatda Səxavət Kəngərli məktəbi yaradıb. Bu məktəb onu tanıyan jurnalistlərin mətbuatı öyrənmək ünvanıdır. Həqiqəti düzgün söyləmək, rastlaşdıqları neqativ hallara qarşı mübarizə aparmağı öyrənmək ünvanıdır. Bu məktəbin qapısı ömrünü mətbuata bağlayanların üzünə həmişə açıqdır.

Dost itkisi ağır olur, Səxavət müəllim! Çox yaşamışdın belə itkini. O günü bizə də yaşatdın. O itkilərə vida sözləri yazmışdın. Bu gün vida sözlərini sənə yazırıq.

Qəbrin nurla dolsun!

**Muxtar MƏMMƏDOV**

*Ölkəmizin paytaxtı Bakı şəhərindən müxtəlif ixtisaslar üzrə həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi, aztəminatlı ailələr üçün nəzərdə tutulmuş xüsusi sağlamlıq layihələrinin intensiv qaydada icra olunması davam etdirilir.*

## Ordubadda növbəti humanitar aksiyaya start verilib

Bakı şəhərində fəaliyyət göstərən Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti dekabr ayının 22-dən Ordubad rayonunda növbəti humanitar aksiyaya start verib. Ordubad Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan 3 günlük aksiyada Klinik Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 24 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edir. Onlardan oftalmoloq Rasim Orucov, travmatoloq Cavid Musazadə, cərrahlar Sahib Hüseynov, Toğrul Məhərrəmov, anestezioloq-reanimatoloq Elşən Ağayev, kardioloq Samirə Məmmədli, ginekoloqlar Kənarə Abdullayeva, Aytəkin Hacızadə, otolarinqoloq Məzahir Quliyev, nevropatoloq Qabil Bayramov, allerqoloq Reyhan Paşayeva, endokrinoloq Aynur Hümmətova və başqalarının səyi ilə aksiyanın ilk günü 450 pasiyent profilaktik tibbi müayinə ilə əhatə edilib, cərrahi müdaxiləyə ehtiyacı olan 15 xəstə üzərində LOR, göz və ümumi cərrahi əməliyyatlar aparılıb.

Aksiya zamanı pasiyentlər həmçinin hematoloji, uroloji, nevroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunublar. Qeyd edək ki, xəstəxanaya min nəfərdən çox pasiyent müayinə olunmaq üçün müraciət edib. Onların hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi lazımi şərait yaradıb. Ordubad Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə tibbi xidmət göstərir.

Aksiyada iştirak edən Ordubad şəhər sakini Süleyman Qənbərov bildirdi ki, övladının cərrahi müdaxiləyə ehtiyacı var idi. Rayon Mərkəzi Xəstəxanasında belə bir aksiya keçirilməsi bu ehtiyacın ödənilməsinə imkan verib. Aksiyanın ilk günü övladı üzərində cərrahi əməliyyat aparılıb. Palataya yerləşdirilən xəstə yüksək həkim nəzarətindədir. Valideyn belə xeyirxah aksiyaların təşkilatçı və icraçılarına minnətdarlığını ifadə etdi.

Ordubad şəhər sakini Şəlalə Ağayeva, Nəsirvaz kənd sakini Səkinə Həsənova və başqaları da onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirərək razılıqlarını bildirdilər.

Xatırladaq ki, Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 24 nəfərdən ibarət həkim briqadası bu ilin yanvar ayında Şərur, may ayında isə Ordubad Rayon Mərkəzi xəstəxanalarında əhalini tibbi müayinədən keçirmişdi.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Voleybol üzrə şəhər birinciliyinə yekun vurulub



31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Naxçıvan şəhər tam orta məktəblərinin oğlan komandaları arasında voleybol üzrə şəhər birinciliyinə yekun vurulub.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin təşkil etdiyi birincilik 12 nömrəli tam orta məktəbin idman zalında keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək idmançıları qarşıdan gələn bayramlar münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Olimpiya sistemi üzrə keçirilən yarışda 15 komanda iştirak edib. VIII-XI sinif şagirdləri arasında keçirilən yarışda 3 nömrəli tam orta məktəbin komandası birinci yerə layiq görülüb. Digər iki pillədə isə 10 və 7 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

Sonda qalib komandalara təşkilatçıların diplomları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

İsmayılov İsmayıl Həsən oğlunun adına Şahbuz rayonu Şahbuzkənddə yerləşən evin 0018688, 0018689 və 0018690 nömrəli çıxarışları itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 956